DOI: https://www.doi.org/10.36719/2663-4619/65/178-180

**Mələkxanım Seyfulla qızı Rəhimova**
Bakı Dövlət Universiteti
magistrant
melek.rahimovafff@gmail.com

# AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM SAHƏSİNDƏ KADR POTENSİALININ ARTIRILMASINDA BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN ROLU

***Açar sözlər:*** *Beynəlxalq təşkilatlar, strateji əməkdaşlıq, təhsil hüququ, dövlət nəzarəti, memorandum, saziş*

## The role of international cooperation in increasing human resources in the field of tourism in the Republic of Azerbaijan

**Summary**

The effective establishment of interstate international cooperation is important both for development and for ensuring rights in the field of tourism. The adoption of interstate agreements is not the only condition. At the same time, it is important to apply them in practice and establish comprehensive relations with both states and international organizations to achieve this goal. The article discusses the various forms of this cooperation and ways to build it more efficiently.

***Key words***: *international organization, strategic cooperation, the right to education, state control, memorandum, agreement*

## Giriş

Turizm sahəsində həm inkişaf, həm də hüquqların təminatı üçün dövlətlərarası beynəlxalq əməkdaşlığın səmərəli qurulması vacib məqamlardan sayılır. Burada yalnız dövlətlərarası sazişlərin qəbul edilməsi əsas şərt deyil. Eyni zamanda, bunların praktikada tətbiqi və qarşıyaqoyulmuş məqsədə çatmaq üçün istər dövlətlərlə, istərsə də beynəlxalq təşkilatlarla hərtərəfli əlaqələrin qurulması mühüm əhəmiyyət kəsb edir. Məqalədə bu əməkdaşlığın müxtəlif formalarından və daha səmərəli qurulması yollarından bəhs edilir.

İlkin olaraq qeyd edək ki, Dünya birliyinin tam hüquqlu üzvünə çevrilmiş Azərbaycan Respublikası beynəlxalq arenada xarici dövlətlər və beynəlxalq təşkilatlarla turizm sahəsindəki strateji əməkdaşlıq əlaqələrini əsasən aşağıdakı dörd aspektdə qurur:

1. Dövlət turizm siyasətinin formalaşdırılması və turizm fəaliyyətinin tənzimlənməsi;
2. Turizm sahəsində təhsil, savadlı kadrların yetişdirilməsi, yerləşdirilməsi və rotasiyası;
3. Turizm bazarının qurulması və idarəetmə;
4. Dövlətin turizm fəaliyyətinə nəzarəti

İkinci aspekt qeyd olunduğu kimi, turizm sahəsində təhsil, savadlı kadrların yetişdirilməsi, yerləşdirilməsi və rotasiyasından ibarətdir. Ümumilikdə, hər bir sahənin səmərəli inkişaf etməsinin başlıca şərti təhsil sisteminin mükəmməl qurulmasından ibarətdir. Umumdünya Insan Hüquqları Bəyannaməsində deyilir: "Hər bir şəxsin təhsil hüququ var. Təhsil insan şəxsiyyətinin tam inkişafına və insan hüquqları və əsas azadlıqlara hörmətin artırılmasına yönəldilməlidir. Təhsil xalqlar, irqi və dini qruplar arasında qarşılıqlı anlaşmanın, dözümlülüyün və dostluğun möhkəmləndirilməsinə və Birləşmiş Millətlərin sülhü qoruma sahəsində fəaliyyətinə yardım etməlidir".

Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində də hər bir vətəndaşın təhsil almaq huququ təsbit edilmişdir. Həmin maddədə qeyd edilir ki, «Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir» (2). Hökumətlər turizm də daxil olmaqla təhsil sistemi üzərində kontrola malikdirlər. Sektorun ehtiyac duyduğu savadlı kadrların yetişdirilməsi, bu sahədəki təhsil sisteminin müəyyən standartlara uyğunlaşdırılması və həyata keçirilməsi dövlətin əsas vəzifələrindəndir (5, s. 11). Müxtəlif ölkələrdə turizm sahəsində təhsil sisteminin təhlili göstərir ki, onlar əsasən öz fəaliyyətlərində turizm bazarının, turizm üçün əmək bazarının və həm dövlət, həm də qeyri-dövlət sektorlarının tələbatlarına əsaslanır. (7, s. 246). Qeyd etmək lazımdır ki, beynəlxalq səviyyədə turizmin müxtəlif sferalarında təhsillə əlaqəli bir sıra dövlətlərarası və qeyri-hökumət təşkilatları fəaliyyət göstərir. Əlbəttə, sadəcə Ümumdünya Turizm Təşkilatı (ÜTT) yeganə dövlətlərarası təşkilatdır ki, turizm sferasında bütün səviyyələrdə təhsilin tam olaraq bütün aspektlərində mandata sahibdir (7, s. 244). Bu gün ÜTT bütün dünya üzrə turizm seminarlarının və treninqlərinin genişlənməsi və yeridilməsinə cavabdehdir. Iş proqramı ona əsaslanır ki, fəaliyyət 2 istiqamətdə aparılmalıdır. Belə ki, əsas təhsil milli səviyyədə, eyni zamanda orta və yüksək təhsil beynəlxalq proqram üzrə milli institutlarda aparılmalıdır. Buna əsaslanaraq, ÜTT öz fəaliyyətini yüksək səviyyədə təmərküzləşdirir, xüsusən də

universitet və idarəetmə kursları səviyyəsində. ÜTT-nın turizmdə təhsilin və treninqin inkişafı üçün strategiyası turizm sektorunun bütün aspekt və sahələrini əhatə etməsindən ibarətdir. (7, s. 244).

ÜTT-nin müstəqil üzvü olan Azərbaycan Respublikasında təhsil sisteminin qarşısındakı ən başlıca məqsəd ümumbəşəri dəyərlərə yiyələnən, insan hüquqları və azadlıqlarına hörmət ruhunda tərbiyə edilən, yüksək əxlaqi və mənəvi keyfiyyətlərə malik olan, müasir və yaradıcı düşüncəyə sahib savadlı kadrların yetişdirilməsidir. Hər sahədə olduğu kimi, turizm sahəsində də təhsilə çox böyük önəm verilir. Beynəlxalq əlaqələr və layihələr sahəsində əsasən 4 istiqamətdə iş aparılır:

1. Avstriyanın Krems Tətbiqi Elmlər Universiteti ilə birgə əməkdaşlıq;
2. “Açıq Pəncərə Əməkdaşlıq” layihəsində iştirak;
3. BMT İP-in “Ölkədaxili turizmin səmərəli inkişafına kömək etməklə Azərbaycan Respublikasında yoxsulluğun azaltılması məqsədilə Mədəniyyət və Turizm Nazirliyinə institusional yardım” layihəsində iştirak;
4. Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq" (“CAREC”) proqramı çərçivəsində əməkdaşlıq təşəbbüsü. (10).

Tədbirlər planının əsas məqsədi Azərbaycan turizm sənayesinin inkişaf etdirilməsi üçün qonaqpərvərlik, turizm, səyahət və istirahət sahəsində beynəlxalq tələblərə cavab verən ixtisaslı kadrlara olan ehtiyacı ödəmək, turizm sahəsindəki kadrların hazırlanmasını müasir standartlar səviyyəsinə qaldırmaqdan ibarətdir. Bu məqsədlə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 13 fevral 2006-cı il tarixli 45 saylı Qərarına əsasən, Azərbaycan Turizm İnstitutu təsis edilmiş, 2008-2009-cu tədris ilindən etibarən magistratura pilləsi yaradılmışdır. 22 dekabr 2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Turizm və Menecment Universiteti yaradılmışdır (5). 2015-ci ildə isə Bakı Dövlət Universitetinin Hüquq fakültəsində Turizm hüququ ixtisası təsis edilmişdir. Ölkədə turizm təhsil sistemini müasir standartlar səviyyəsinə qaldırmaq üçün dünyanın qabaqcıl ölkələri əməkdaşlıq edilir, bu sahədə təcrübə mübadiləsi daha da genişləndirilir. 4 iyul 2007-ci il tarixdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və ATİ ilə Avstriyanın Krems Tətbiqi Elmlər Universiteti arasında  Turizm təhsili sahəsində beynəlxalq əməkdaşlıq müqaviləsi” imzalanmışdır. Akademik Müqavilə şərtlərinə əsasən, I kurs bitdikdə IELTS proqramı üzrə 6 baldan yuxarı nəticə göstərən tələbələr 4 illik bakalavr təhsilini başa vurduqdan sonra həm ATİ-nin, həm də Krems Tətbiqi Elmlər Universitetinin diplomlarını əldə edirlər. İki diplom almış tələbələr IMC Universitetinin magistrantı olmaq şansı və dünyanın istənilən ölkəsində işlə təmin olunmaq imkanı əldə edirlər. ATİ, eyni zamanda Avropa İttifaqının  Erasmus Mundus Xarici Əməkdaşlıq Pəncərəsi” proqramının qaliblərindən biridir. Proqram çərcivəsində ATİ Avropanın on altı ali təhsil müəssisəsi ilə mübadilə proqramı həyata keçirir (5, 11). Bu proqram Avropa Birliyi ölkələri ilə üçüncü dünya ölkələri arasında tələbə və akademik heyət mübadiləsinə əsaslanaraq, təhsil sahəsində əməkdaşlığın inkişafını sürətləndirmək məqsədilə yaranmışdır.

Azərbaycan Respublikasında təhsillə yanaşı, turizm sahəsindəki elmi biliklərin praktikada tətbiqinə də xüsusi diqqət ayrılır. 2007-ci ildə BMTİP-in “Ölkədaxili turizmin inkişafına kömək etməklə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması məqsədilə Mədəniyyət və Turizm Nazirliyinə İnstitusional Yardım” layihəsi çərçivəsində yaradılmış Tədqiqat və İnkişaf Mərkəzi bu istiqamətdə fəaliyyət göstərir. Ölkə daxilində keçirilən tədbirlər çərçivəsində 2004-cü ildə InWent ixtisasartırma və inkişafa dair beynəlxalq assosiasiyası tərəfindən, Cənubi Qafqazda Qorunan ərazilər və turizmin inkişafına həsr olunmuş «Regional inkişaf, konservasiya və sərhədyanı əməkdaşlığın təcrübəsi və perspektivləri» mövzusunda seminar keçirilmişdir. Bu tədbirlər planının davamı çərçivəsində Azərbaycanda yerli ixtisasartırma sisteminin inkişafına yardım göstərmək üçün ATİ-də qısamüddətli qonaqpərvərlik təlim-tədris mərkəzi yaradılmışdır.

Ölkəmiz mərkəzi icra hakimiyyəti orqanları və qeyri-hökumət təşkilatları vasitəsilə də xarici dövlətlərlə bu sahədə əməkdaşlığını hərtərəfli genişləndirmişdir. AzTa və Les Roches Universiteti arasında 2018-ci ildə turizm sahəsində birgə tədqiqatların, treninq proqramlarının hazırlanması və həyata keçirilməsi, eləcə də təcrübə mübadiləsini nəzərdə tutan Memorandum imzalanmışdır. Bundan başqa, xarici dövlətlərlə bir sıra sazişlər bağlanmışdır. 18 may 2004-cü il **Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında imzalanmış mədəniyyət, elm və turizm sahəsində uzunmüddətli əməkdaşlıq Proqramı**nın 4.5-ci bəndində göstərilir ki, tərəflər turizm sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasında bir-birinə kömək etmək məqsədilə elmi işçilərin, ekspertlərin, aspirantların, təcrübəçilərin və tələbələrin mübadiləsinə yardım edəcək, hərtərəfli əlaqələrə, habelə turizm sahəsində hər cür qarşılıqlı fəaliyyətə səy göstərəcəklər (4).

29 dekabr 2014-cü ildə Bakı şəhərində **Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Macarıstanın Milli İqtisadiyyat Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş** imzalanmışdır. Sazişin 4-cü maddəsində qeyd edilir, «Razılığa gələn Tərəflər peşəkar təlim sahəsində əməkdaşlığı təşviq edir, turizm sahəsində təhsil proqramları haqqında məlumat mübadiləsinə yardım edirlər (4).

18 dekabr 2015-ci ildə **Azərbaycan Respublikası ilə Argentina Respublikası arasında tur sahəsində əməkdaşlığa dair Saziş** imzalanmışdır. 4-cü maddədə deyilir: «Tərəflər peşəkar hazırlıq sahəsində əməkdaşlığı təşviq edəcək, turizm sahəsində təlim proqramları barədə informasiya mübadiləsini asanlaşdıracaq və özlərinin müvafiq dövlət orqanları vasitəsilə, turizm biznesinin idarəedilməsi üzrə və bu sahədə digər mütəxəssislərin hazırlanması üçün qrant təqaüdlərinin verilməsinin mümkünlüyünü araşdıracaqlar» (4).

29 noyabr 2017-ci ildə **Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Türkmənistanın Turizm üzrə Dövlət Komitəsi arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş**in üçüncü maddəsində isə qeyd edilir: «Tərəflər kadrların hazırlanmasında qarşılıqlı kömək göstərəcəklər və turizm üzrə müvafiq qurumlarının mütəxəssislərinin mübadiləsinə yardım edəcəklər. Tərəflər maraq göstərən təşkilatlara turizm sahəsində investisiya layihələrinin hazırlanmasında və həyata keçirilməsində, həmçinin birgə müəssisələrin yaradılmasında kömək edəcəklər» (4).

Bundan başqa, 26 noyabr 2018-ci il Azərbaycan Respublikasi Prezidentinin Fərmanı ilə təsdiq edilmiş **Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş**in 7-ci maddəsində qeyd edilir ki, «Tərəflər Azərbaycan Respublikasında və Rusiya Federasiyasında turizm sahəsində peşəkar kadrların hazırlanmasını təşkil edən təşkilatları arasında əlaqələrin yaradılmasına və əməkdaşlığın inkişaf etdirilməsinə kömək göstərir, həmçinin turizm sahəsi üzrə ixtisaslaşmış ekspert və jurnalistlərin mübadiləsini təşviq edirlər. Ekspert və jurnalistlərin mübadiləsi ilə bağlı maliyyə şərtləri hər bir konkret hal üzrə Tərəflərin dövlət turizm idarəetmə orqanları arasında razılaşdırılır» (4).

## Nəticə

Görülən bütün bu tədbirlərin əsas məqsədi yerli turizm təhsilinin keyfiyyətinin beynəlxalq standartlara uyğunluğunu təmin etməkdən, turizm peşəsinin keyfiyyətinin artırılmasından, eləcə də kadr çatışmazlığı probleminin aradan qaldırılmasından ibarətdir. Eyni zamanda qeyd etməliyik ki, dövlətimizin yuxarıda sadalanan aspektlər üzrə beynəlxalq fəaliyyəti və əməkdaşlığı yalnız hüquqi istiqamətdə - müxtəlif saziş və milli normaların qəbul edilməsi ilə kifayətlənməməlidir. Həmçinin təcrübi istiqamətdə də tədbirlər davam etdirilməlidir. Xüsusilə, kadr potensialının yetişdirilməsinə və turizm sahəsi üzrə infrastrukturun formalaşdırılmasına vəsait ayrılmasına diqqət yetirilməlidir. İnfrastrukturun formalaşdırılması digər tərəfdən sahibkarlığa dəstək göstərildiyi bir mühitdə mümkündür. Hədsiz dərəcədə zəngin təbiətə malik olan respublikamızda özəl sahəyə dəstək göstərməklə turizm sferasını inkişaf etdirmək olar. Lakin xüsusi maarifləndirmə və cəlbetmə olmadan turistlərin cəlb edilməsi də mümkün deyildir. Bunun üçün beynəlxalq və regional xarakterli tədbirlərə ev sahibliyi etməklə turistlərin Azərbaycana axınını artırmaq olar. Təbii ki, kadr potensialı olmadığı mühitdə yüksək keyfiyyətli xidmətlərin olmaması ümümilikdə turizm sahəsinin inkişafına mənfi təsir göstərəcəkdir. Ona görə də xüsusi ixtisaslaşmış kadrların hazırlanması dövlətin turizm siyasətinin əsas istiqamətlərindən olmalıdır.

## References

1. Official website of the State Tourism Agency of the Republic of Azerbaijan. https://tourism.gov.az/
2. Official Website of the President of the Republic of Azerbaijan. https://www.president.az
2. Official website of the Ministry of Foreign Affairs of the Republic of Azerbaijan. https://www.mfa.gov.az/az
3. Unified Internet electronic database of normative legal acts of the Ministry of Justice of the Republic of Azerbaijan. e-qanun.az
4. Official website of Azerbaijan University of Tourism and Management. http://atmu.edu.az/
5. Aliyev A.I., Aslanov E.Z. International Tourism Law. Textbook. Baku: NAT MMC, 2011, 475 p.
6. Kasumov R.M. International Tourism Market. Baku: University of Economics Publishing House, 2012, 270 p.
7. Tourism product policy. Edited by Alp Timur. Ankara: Detay yayıncılık, 2014, 411 p.
8. Funds for specialists for local planning of sustainable tourism development. Baku, 2012. 61 p.
9. Jafarov J. Potential, problems and perspectives of tourism in Azerbaijan // Xalq Qazeti, 2007, September 2, p. 4. http://anl.az/down/medeniyyet2007/sent.09/medeniyyet2007_sent.09_92.htm
10. https://www.azerbaijans.com/index_en.html

**Rəyçi: dos. G.A.Rzayeva**

Göndərilib: 29.04.2021 Qəbul edilib: 30.04.2021